AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 26 (1426), 2 - 8 iyul 2019-cu il*

*Qəzet 2001-ci ildən çıxır.*




## Minskdə II Avropa Oyunlarının bağlanış mərasimi keçirilib

İyunun 30-da Belarusun paytaxtı Minskdə ikinci Avropa Oyunlarının bağlanış mərasimi keçirilib.

"Dinamo Arena"da keçirilən bağlanış mərasimində Belarus, Rusiya, Tacikistan prezidentləri ilə yanaşı, Beynəlxalq və Avropa Olimpiya komitələrinin prezidentləri iştirak ediblər. Bundan başqa bir sıra ölkələrin nazirləri, o cümlədən Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə də iştirak ediblər.

Bağlanış mərasimi Belarusun dövlət himninin səslənməsi ilə başlayıb. Sonra iştirakçı dövlətlərin bayraqları gətirilib. Azərbaycanın keçidi zamanı bayraqdar II Avropa Oyunlarının qızıl mükafatçısı karateçi Asiman Qurbanlı olub. "Aura" qrupunun ifasından sonra idmançıların paradı keçirilib. Daha sonra müxtəlif rəqs kompozisiyaları nümayiş etdirilib və Belarusun simvolu olan Zubr nəhəng ekranda canlandırılıb. Yerli ifaçılar mahnılar ifa ediblər. Bu zaman belaruslular böyük tədbirlərin keçirilməsinə necə qadir olduğunu göstərdi, öz qapılarını Avropanın üzünə açdı. 10 gün ərzində Minsk arenalarında isti münasibətlər oldu. Bu da dünyada sülhün davam etdirilməsi üçün vacib idi. Aleksandr Lukaşenko çıxışında idman yarışlarını operativ işıqlandıran jurnalistlərə, ədalətli olan hakimlərə, öz ölkələrini layiqincə təmsil edən idmançılara, ən böyük əziyyəti olan könüllülərə, azarkeşlərə təşəkkürünü bildirib. Qeyd edib ki, könüllülər bu müddət ərzində Minskdə qonaqlara, idmançılara köməkliyini əsirgəməyib. Onun sözlərinə görə, Prezident Administrasiyasına könüllülərin məlumat bankının yaradılması barədə tapşırıq verib.

"Ən kədərli andır, biz ikinci Avropa Oyunlarını bağlayırıq. Ancaq qoy bu Avropa Oyunlarının ömrü uzun olsun", - deyə A.Lukaşenko çıxışını yekunlaşdırıb.

Sonra çıxış edən Avropa Olimpiya Komitəsinin prezidenti Yanes bildirib ki, 10 gün ərzində möhtəşəm



idmanda vacib amillər olan yarışdan əvvəl, ikinci nəfəs, məşqçi, hörmət, yeni çağırış, könüllülər və qələbəni əks etdirən anlar nümayiş olunub. Daha sonra Avropa Olimpiya Komitəsinin bayrağı endirilib.

Bundan sonra Belarus prezidenti Aleksandr Lukaşenko çıxış edib. İkinci Avropa Oyunlarını dostluq və birlik bayramı adlandıran A.Lukaşenko bildirib ki, Avropanın milyonlarla insanının bir ailədə birləşdiyini gördük. Onun sözlərinə görə, Avropa Oyunlarında yarışın şahidi olub. Könüllülər, həqiqətən, böyük işlər gördülər. Dopinq məsələsinə ciddi nəzarət olundu. Y. Kocjançiç II Avropa Oyunlarını bağlı elan etdikdən sonra söz musiqiyə verilib.

Sonda II Avropa Oyunlarının məşəli söndürülüb.

Qeyd edək ki, iyunun 21-də start götürən ikinci Avropa Oyunlarında qitənin 50 ölkəsindən 4 mindən çox atlet idmanın 15 növü üzrə 200 dəst medal uğrunda mübarizə aparıb.

## II Avropa Oyunları "Olimpiya dünyası"nın foto-obyektivinin gözü ilə

Səh. 5

## Azərbaycan yığması II Avropa Oyunlarında 28 medal qazandı

### *5 qızıl, 10 gümüş, 13 bürünc*

Minskdə keçirilən ikinci Avropa Oyunlarında 82 idmançı ilə təmsil olunan Azərbaycan millisi 28 medal qazanaraq komanda hesabında Oyunlarda iştirak edən 50 ölkə arasında 10-cu yerdə qərarlaşıb. Ümumilikdə 200 dəst medala 43 ölkə təmsilçisi yiyələnib. Onlardan cəmi 34-ü qızıl medal sevinci yaşayıb. Bakıda keçirilmiş ilk Avropa Oyunlarında olduğu kimi, ikinci Avropa Oyunlarında da Rusiya komandası medal siyahısında birinci yeri tutub. Rusiyalı idmançıların aktivində 109 (44-23-42) medal var. İkinci yerdə 69 medalla ev sahibləri Belarus (24-16-29), üçüncü pillədə isə 51 medalla Ukrayna (16-17-18) yığmaları qərarlaşıblar. İlk onluqda İtaliya, Hollandiya, Almaniya, Gürcüstan, Fransa, Böyük Britaniya və Azərbaycan komandaları yer alıblar.

Xatırladaq ki, tarixdə ilk Avropa Oyunları 2015-ci il iyunun 12-28-də Bakıda keçirilib. Azərbaycan bu mötəbər idman yarışının təşkili üçün qısa müddətdə hazırlıq prosesini yüksək səviyyədə başa vuraraq Avropa Oyunlarının standartlarını müəyyənləşdirib. Bakı-2015-də uğurla çıxış edən Azərbaycan millisi komanda hesabında ikinci yerdə qərarlaşıb. İdmançılarımız Oyunlarda 56, o cümlədən 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazanıblar.

*(ardı 3-cü səhifədə)*

### *II Avropa Oyunlarında medal qazanan ölkələr*

| Ölkə | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| 1. Rusiya | 44 | 23 | 42 | 109 |
| 2. Belarus | 24 | 16 | 29 | 69 |
| 3. Ukrayna | 16 | 17 | 18 | 51 |
| 4. İtaliya | 13 | 15 | 13 | 41 |
| 5. Hollandiya | 9 | 13 | 7 | 29 |
| 6. Almaniya | 7 | 6 | 13 | 26 |
| 7. Gürcüstan | 6 | 10 | 14 | 30 |
| 8. Fransa | 6 | 9 | 13 | 28 |
| 9. B. Britaniya | 6 | 9 | 8 | 23 |
| **10. Azərbaycan** | **5** | **10** | **13** | **28** |
| 11. Ermənistan | 5 | 3 | 3 | 11 |
| 12. İspaniya | 5 | 2 | 6 | 13 |
| 13. Macarıstan | 4 | 6 | 9 | 19 |
| 14-15. Belçika | 4 | 1 | 1 | 6 |
| 14-15. Sloveniya | 4 | 1 | 1 | 6 |
| 16. Bolqarıstan | 3 | 7 | 8 | 18 |
| 17. Portuqaliya | 3 | 6 | 6 | 15 |
| 18. İsveçrə | 3 | 3 | 4 | 10 |
| 19. İsrail | 3 | 3 | 1 | 7 |
| 20. Yunanıstan | 3 | 2 | 4 | 9 |
| 21. Danimarka | 3 | 2 | 3 | 8 |
| 22. Polşa | 3 | 1 | 10 | 14 |
| 23. İsveç | 3 | 1 | 4 | 8 |
| 24. Türkiyə | 2 | 6 | 7 | 15 |
| 25. Çexiya | 2 | 5 | 6 | 13 |
| 26. Rumıniya | 2 | 3 | 5 | 10 |
| 27. Latviya | 2 | 3 | 2 | 7 |
| 28. Xorvatiya | 2 | 1 | 5 | 8 |
| 29. Litva | 2 | 1 | 0 | 3 |
| 30. Finlandiya | 2 | 0 | 1 | 3 |
| 31-32. Avstriya | 1 | 2 | 4 | 7 |
| 31-32. İrlandiya | 1 | 2 | 4 | 7 |
| 33. Serbiya | 1 | 2 | 3 | 6 |
| 34. Kosovo | 1 | 1 | 1 | 3 |
| 35. Estoniya | 0 | 2 | 3 | 5 |
| 36. Moldova | 0 | 1 | 4 | 5 |
| 37. Slovakiya | 0 | 1 | 3 | 4 |
| 38. Lüksemburq | 0 | 1 | 2 | 3 |
| 39-41. Bosniya və Hers. | 0 | 1 | 0 | 1 |
| 39-41. Kipr | 0 | 1 | 0 | 1 |
| 39-41. Çernoqoriya | 0 | 1 | 0 | 1 |
| 42. Norveç | 0 | 0 | 2 | 2 |
| 43. San-Marino | 0 | 0 | 1 | 1 |

MINSK 2019
2nd EUROPEAN GAMES



Minskdə "Olimpiya mədəniyyəti və təhsil" proqramı çərçivəsində tədbir keçirilib Səh. 2

*Minsk-2019: fikirlər, rəylər* Səh. 2

*Milli komandamız hazırlıqlara başlayıb* Səh. 7

## XV Avropa Gənclər Olimpiya Festivalına 19 gün qalır



# II AVROPA OYUNLARI





## Minskdə “Olimpiya mədəniyyəti və təhsil” proqramı çərçivəsində tədbir keçirilib

Belarus və Azərbaycan Milli Olimpiya komitələrinin, Avropa Olimpiya Komitəsinin nümayəndələri və idmançılar Minskdə Fransisk Skorina adına 1 saylı gimnaziyada olublar.

Səfər çərçivəsində keçirilən görüşdə Azərbaycan MOK-un baş katibinin müavini Azər Əliyev, Belarus Milli Olimpiya Komitəsinin vitse-prezidenti Sergey Repkin, Avropa Olimpiya Komitəsinin nümayəndəsi Gianluca De Angelis, Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilov iştirak ediblər.

Xatırladaq ki, Fransisk Skorina adına 1 saylı gimnaziya Avropa Gənclərinin Yay Olimpiya Festivalının irsi olan “Olimpiya mədəniyyəti və təhsil” proqramı çərçivəsində Azərbaycanın 164 saylı məktəbi ilə qardaşlaşıb.

Tədbirdə gimnaziyanın direktoru Natalya Buşnaya “Olimpiya mədəniyyəti və təhsil” proqramı çərçivəsində təqdim olunan fəaliyyətlər barədə məlumat verib. O, mədəni və tarixi mübadilə, Olimpiya dəyərlərini öyrənmək və bölüşmək üçün böyük imkanlar yaratdığına görə, Belarus və Azərbaycanın Milli Olimpiya komitələrinə, həmçinin Avropa Olimpiya Komitəsinə təşəkkür edib.

Azər Əliyev tədbirdə çıxış edərək proqramın həyata keçirilməsində fəal iştirakına görə gimnaziyanın rəhbərliyinə təşəkkürünü bildirib. O, həmçinin Belarus MOK-un təşəbbüskarlığını yüksək qiymətləndirib. Azərbaycanlı tələbələr və qonaqların “Olimpiya mədəniyyəti və təhsil” proqramına daha çox diqqət yetirdiyini vurğulayan Azər Əliyev Minskdə keçirilən ikinci Avropa Oyunlarından böyük məmnunluq duyduğunu qeyd edib.

Sonda iştirakçılara hədiyyələr təqdim edilib və xatirə şəkli çəkdirilib.

## KİV nümayəndələri üçün media-tur təşkil edilib

İyunun 21-də Minskdə II Avropa Oyunlarını işıqlandırcaq KİV nümayəndələri üçün media-tur təşkil edilib. Yerli Təşkilat Komitəsi tərəfindən media-tur çərçivəsində əcnəbi jurnalistlərə, əvvəlcə, Minskin tarixi yerləri barədə məlumat verilib. Bildirilib ki, Oyunlar çərçivəsində həmin məkanlarla yaxından tanış olmaq imkanı var. Şəhər gəzintisindən sonra Belarus Milli Rəssamlıq muzeyində tədbir keçirilib. Muzeyin direktoru Vladimir Prokopçov qonaqları salamlayaraq, muzeyin tarixindən qısa məlumat verib. “1939-cu ildən fəaliyyət göstərən muzeydə müxtəlif janrda rəsm və heykəltəraşlıq nümunələri qorunub saxlanır. Həmin əsərlər arasında idman mövzusunda olan sənət nümunələri də yer alıb. Hesab edirəm ki, siz burada gördüyünüz əsərlər barədə öz ölkənizdəki insanlara məlumat verəcəksiniz. Buna görə hər birinizə əvvəlcədən minnətdarlığımı bildirirəm”, - deyə Vladimir Prokopçov vurğulayıb. Muzeylə tanışlıqdan sonra KİV nümayəndələri Belarus mətbəxinin qonağı olublar.







# Minsk-2019: fikirlər, rəylər

### “II Avropa Oyunlarında idmançılarımızın nəticələrini uğurlu saymaq olar”

***Azad Rəhimov (Gənclər və İdman Naziri):***



- Minskdə keçirilən II Avropa Oyunlarında Azərbaycan idmançılarının qazandığı medalların sayına görə nəticələrini uğurlu saymaq olar. Biz cüdoçularımızın Azərbaycana qızıl medalla qayıdacağını gözləyirdik. Təəssüflər olsun ki, bu, alınmadı. Düşünürəm ki, Azərbaycan Cüdo Federasiyası üzümüzə gələn Tokio Olimpiadasına çox ciddi yanaşmalıdır, bütün imkanları səfərbər etməlidir. Çünki bizim cüdoda çox yüksək səviyyəli komandamız var, onların güclü potensialı var.

İkinci Avropa Oyunlarında çıxış edən güləşçilərimiz həmişəki kimi əldə etdiyi medallarla Azərbaycanı sevindirdi. Digər bir sevindirici hadisə isə boks və karate yarışlarında komandamızın uğurla çıxış etməsi oldu.

II Avropa Oyunlarının təşkilatçılıq baxımından yüksək səviyyədə təşkil edildi. Burada təşkilati işlərdə azərbaycanlı mütəxəssislər də yaxından iştirak edirlər. Bakıda keçirilən I Bakı Avropa Oyunlarında qoyulan standartlar Minskdə də uğurla tətbiq edilib.

### “Minskdə keçirilən Avropa Oyunlarında lazımi şərait yaradılıb”

***Kamandar Məcidov (Belarus Güləş Federasiyasının prezidenti, Olimpiya, ikiqat dünya və üçqat Avropa çempionu):***

- Minskdə keçirilən ikinci Avropa Oyunlarında da lazımi şərait yaradılıb. Turist sayı baxımından irəliləyiş hiss olunur. Əvvəl elə bilirdik ki, təşkilatçılıq asan başa gələcək. Amma işin içində olduqca, görürsən ki, çətin məqamlar da olur. Bütün işləri təxminən iki ilə sığışdırdıq. Burada da bəzi obyektlərdə müəyyən yeniliklər edildi. Şəhər gözəlləşdirilib. Ümumiyyətlə, Minsk gözəldir. Avropa Oyunlarının açılışı gec saatlarda olsa da, mərasim çox yüksək səviyyədə baş tutdu. Mən çox yerdə, çox açılış mərasimində olmuşam. Deyə bilərəm ki, Minskdəki Oyunların açılış mərasimi yaxşı alındı.



### “Mahir qızıl medal qazanaraq bütün hərbiçilərimizə hədiyyə etdi”

***Firdovsi Umudov (Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti):***

- Azərbaycan Minsk-2019-da ilk qızıl medalı güləş yarışlarında qazandı. Bu qələbənin 26 İyun Silahlı Qüvvələr Gününə təsadüf etməsi hər birimizi sevindirir. Bu medalı çoxdandır ki, gözləyirdik. Nəhayət, həmin o an gəlib çatdı. Özü də belə bir gündə. Mahir Əmiraslanov 57 kq çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxdı. Mahir 26 İyun Silahlı Qüvvələr Günündə qızıl medal qazanaraq bütün hərbiçilərimizə hədiyyə etdi.



### “Ölkəmizə ilk qızıl medalı qazandırdığım üçün çox sevinirəm”

***Mahir Əmiraslanov (II Avropa Oyunlarının sərbəst güləş yarışlarının qalibi):***

- İkinci Avropa Oyunlarında Azərbaycana ilk qızıl medalı qazandırdığım üçün çox sevinirəm. Bu qələbəni hərbçilərimizə həsr edirəm. Bizə yaradılan şəraitə görə federasiya rəhbərliyinə təşəkkürümü bildirirəm. Firdovsi Umudovun üzərimdə çox böyük əziyyəti olub. Yarışlara yüksək səviyyədə hazırlaşmışdım. Minsk-2019-da qızıl medal qazanacağıma inanırdım.



### “Minskdə idmançılar üçün hər cür şərait var idi”

***Mariya Stadnik (İkinci Avropa Oyunlarının qalibi):***

- Ukraynalı güləşçi ilə rəfiqə olduğumdan final görüşü psixoloji baxımdan çətin idi. Bir-birimizi yaxşı tanıyırdıq. Lakin daha təcrübəli olmağım finalda qalib gəlməyimə kömək etdi. Yarışın təşkilatçılığı yüksək səviyyədədir. Təşkilatçıların hamısına təşəkkür edirəm. Çünki Minskdə idmançılar üçün hər cür şərait var idi. Heç bir çətinlik yaranmır. Yemək, nəqliyyat - hər şey yaxşıdır.



### “Minskə qızıl medal qazanaraq himnimizi səsləndirmək niyyətilə gəlmişdim”

***Asiman Qurbanlı (İkinci Avropa Oyunlarının karate yarışlarının qalibi):***



- Yarışın əvvəlcədən də çətin keçəcəyini bilirdim. Qrupda güclü idmançılar çox idi. Mübarizə apardığım çəkidə 8 nəfərin hamısı Avropa və dünya çempionatında medal qazanmış idmançılar idi. Lakin ümidimi itirməyərək, məqsədimə doğru inamlı addımlarla getdim. Minskə qızıl medal qazanaraq himnimizi səsləndirmək niyyətilə gəlmişdim. Final görüşünə rəqibim də yaxşı hazırlaşmışdı. Çox güclü idmançıdır, hətta bir dəfə ona uduzmuşam. Sadəcə, düşündüyüm taktika var idi. Rəqibim səhv etdi və mən də bundan yararlandım. Nəticədə hesabda 1:0 önə keçdim və üstünlüyümü sonadək qoruyub saxlaya bildim. Çox sevinirəm ki, bu arzumu həyata keçirdim və komandamıza qızıl medal qazandırdım. Bu qızıl medal ölkəmizi bir addım da olsa, irəli aparır.

### “Rəqibə qələbə qazanmaq üçün heç bir şans vermədim”

***Hacı Əliyev: (İkinci Avropa Oyunlarının sərbəst güləş yarışlarının qalibi):***



- İkinci Avropa Oyunlarının qalibi olduğum üçün çox sevinirəm. Final görüşünün çətin olacağını əvvəlcədən bilirdim. Çünki rəqibim olduqca güclü idmançı idi. Ona bir neçə dəfə məğlub olmuşdum. Rəqibim olan gürcüstanlı üçqat Avropa çempionunu məğlub etməklə, tilsimi qırdım. Çünki həm Avropa Oyunlarının qalibi oldum, həm də ona qarşı baryeri aradan qaldırdım. Dünən ermənilərə, bu gün isə belə rəqibə qalib gəlmək, mənim üçün, həqiqətən də, çox sevindiricidir. Qələbə üçün çox istəkli idim. Mənə elə gəlir ki, qalib gəlməkdən ötrü hər şeyi etdim və rəqibə qələbə qazanmaq üçün heç bir şans vermədim. İlk Avropa Oyunlarında bürünc medal qazanmışdım. Oyunlar ölkəmizdə keçirildiyi üçün doğma publika qarşısında bir qədər həyəcanlı idim. Xatırlayırsınızsa, Bakıda da ilk görüşümü erməniyə qarşı keçirmişdim. Üzərimdə böyük yük vardı. Sevinirəm ki, II Avropa Oyunlarında qızıl medal qazandım.

### “Qazandığım bürünc medala görə heyfslənmirəm”

***Cəmaləddin Məhəmmədov (İkinci Avropa Oyunlarının sərbəst güləş yarışlarının bürünc mükafatçısı):***



- Qazandığım bürünc medala görə heyfslənmirəm. Yarışda elə təcrübəli güləşçilər var ki, mükafatsız qalırlar. Əsas odur ki, ölkəmizə medalsız qayıtmıram. Bütün idmançılar Avropa Oyunlarına qızıl medal qazanmaq üçün gəliblər. Bu elə bir yarışdır ki, burada zəif rəqib tapa bilmərsən. Oyunlarda iştirak edən hər bir idmançı mükafat qazanmaq üçün yüksək hazırlıq səviyyəsinə malikdir. Bu yarış mənim üçün çox çətin keçdi. Əməliyyatdan sonra bir ilədək məşq etməmişdim. Xalça üzərində cəmi iki həftəlik təlim-məşq toplanışında olmuşdum. Lakin buna baxmayaraq, ölkəmizə medal qazandırmağı bacardım.

# II AVROPA OYUNLARI

(əvvəli 1-ci səhifədə)

### Azərbaycan idmançıları sona qədər mübarizəni davam etdirdilər

Yarışın son günündə 36 dəst medal sahibini tapıb. Azərbaycan millisi son gündə hesabına 4 medal yazdırıb.



# Azərbaycan yığması II Avropa Oyunlarında 28 medal qazandı

## 5 qızıl, 13 gümüş, 10 bürünc

### Güləş

II Avropa Oyunları çərçivəsində güləş yarışlarına iyunun 25-də start verilib.

Sərbəst güləşçilər 4 çəki dərəcəsində qüvvələrini sınayıblar. Azərbaycan yığmasının dörd güləşçisi 1/8 final mərhələsində qüvvəsini sınayıb. Onlardan üçü növbəti mərhələyə adlasa da, biri məğlub olub. 22 yaşlı Mahir Əmiraslanov (57 kq) bolqarıstanlı Georgi Vangelova qalib gəlib - 6:5. Güləşçimiz 1/4 finalda makedoniyalı Vladimir Yeqorovla görüşüb. Rəqibinə 4:0 hesabı ilə qalib gələn idmançımız yarımfinala adlayıb. Onun növbəti rəqibi rusiyalı Zavur Uquyev olub. Yarımfinal görüşlərini də əzmlə başa vuran (3:2) Mahir Əmiraslanov finala yüksəlib. Gənc pəhləvanımız finalda serbiyalı Stevan Miçiçi məğlub edərək (9:1) II Avropa Oyunlarının çempionu adına layiq görülüb. Beləliklə, sərbəst güləşçimiz Azərbaycana ilk qızıl medal qazandırıb.



3 qat dünya və 3 qat Avropa çempionu, Rio-2016 Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı, Bakı-2015 Avropa Oyunlarının qalibi Hacı Əliyev mübarizəyə səkkizdəbir finaldan başlayıb. Titullu idmançımız, əvvəlcə, erməni idmançısı Volodya Franqulyanı, növbəti mərhələdə isə Belarus idmançısı Georgi Kolıevi məğlub edib. Güləşçimiz yarımfinalda Ukraynanı təmsil edən erməni əsilli Hor Ohannesyanı məğlubiyyətə uğradıb. Görüşün ilk yarısı rəqibin üstünlüyü ilə başa çatıb. İkinci hissədə isə Hacı Əliyev rəqibdən 4 xal alaraq hesabda önə çıxıb. Rəqib etirazla əlavə bir xal alaraq görüşü 4:4 hesablı heç-heçə ilə tamamlasa da, qələbə qarşılaşmada daha fəal olan Azərbaycan təmsilçisinə verilib.

Hacı Əliyev finalda Gürcüstan təmsilçisi olan Olimpiya çempionu, 3 qat Avropa çempionu Vladimer Xinçeqaşvili ilə üz-üzə gəlib. Görüşə daha inamlı başlayan güləşçimiz ardıcıl iki dəfə iki xallıq fənd tətbiq edərək üstünlüyü əldə alıb. Oyunda təşəbbüsü əldən verməyən pəhləvanımız güclü rəqibini 10:2 hesabı ilə məğlub edərək Azərbaycanın aktivinə ikinci qızıl medalı yazdırıb.

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini Azər Əliyev, ölkəmizin Belarusdakı səfiri Lətif Qəndilov və Azərbaycan nümayəndə heyətinin üzvləri güləşçimizin çıxışını izləyiblər.

Camaləddin Məhəmmədovun (125 kq) ilk rəqibi Belarus təmsilçisi Vitali Pyasnyak olub. 6:0 hesabı ilə qələbə qazanan pəhləvanımız 1/4 finala yüksəlib. O, yarımfinala vəsiqə üçün macarıstanlı Daniel Liqeti ilə mübarizə aparıb və qalib gəlib. İdmançımız finala vəsiqə uğrunda Gürcüstan güləşçisi Givi Matçaraşvili ilə qarşılaşıb. Güləşçimiz finala vəsiqə şansından yararlana bilməyərək uduzub. Təmsilçimizin növbəti rəqibi təsəlliverici qarşılaşmada müəyyən edilib. Təcrübəli pəhləvanımız üçüncü yer uğrunda görüşdə rumıniyalı Rares Kintoana (12:2) qalib gələrək bürünc medal qazanıb.

Hacımurad Hacıyev (74 kq) türkiyəli Sönər Dəmirtaşa uduzub - 3:4. Yarımfinal qarşılaşmaları Hacımurad Hacıyev (74 kq) üçün medal qazanmaq şansı yaradıb. Onun 1/8 finalda uduzduğu türkiyəli Sönər Dəmirtaş finala vəsiqə qazanıb. Bu da təmsilçimizə təsəlliverici görüşlərdə iştirak hüququ verib. İdmançımız bürünc medal uğrunda yarışa vəsiqə verən qarşılaşmada Yunanıstan təmsilçisi Kirilos Binenmpaounla mübarizədə qalib gəlib. İdmançımız üçüncü yer uğrunda görüşdə ukraynalı Vasili Mixaylovu məğlub edərək II Avropa Oyunlarının bürünc medalını qazanıb.



Nurməhəmməd Hacıyev ikinci Avropa Oyunlarında səkkizdəbir finalda polşalı Radoslav Baranı (8:0), dörddəbir finalda isə Gürcüstan təmsilçisi Elizbar Odikadzeni (7:3) məğlubiyyətə uğradıb. İdmançımız yarımfinalda Ukrayna təmsilçisi Murazi Mçedlidzeyə qalib gəlib - 7:0. Güləşçimiz finalda Rusiya pəhləvanı Abdulrəşid Sadullayevlə qarşılaşıb. Zədə səbəbindən güləşə bilmədiyinə görə qələbə texniki olaraq rəqibə verilib. Beləliklə, sərbəst güləşçimiz yarışı gümüş medalla tərk edib.

Ümumi nəticədə sərbəst güləşçilərimiz ikinci Avropa Oyunlarında ölkəmizə 2 qızıl, 1 gümüş və 2 bürünc medal qazandırıblar. Qızıl medalları komandamızın hesabına Hacı Əliyev (65 kq) və Mahir Əmiraslanov (57 kq) yazdırıblar. Nurməhəmməd Hacıyev (97 kq) gümüş, Hacımurad Hacıyev (74 kq) və Camaləddin Maqomedov (125 kq) isə bürünc medala layiq görülüblər. Sərbəst güləşçilərdən yalnız Aleksandr Qostiyev yarışı medalsız başa vurub.

* * *

II Avropa Oyunlarının 8-ci günündə qadın güləşçilərimiz xalça üzərinə çıxıblar. Olimpiya Oyunlarının üçqat mükafatçısı, dünya və yeddiqat Avropa çempionu Mariya Stadnik (50 kq) mübarizəyə birbaşa dörddəbir finaldan başlayıb. Titullu güləşçimiz polşalı Anna Lukasiak üzərində təmiz qələbə qazanaraq (10:0) adını yarımfinala yazdırıb. Yarımfinalda Türkiyə güləşçisi Evin Demirhanı məğlub edən Mariya Stadnik finala vəsiqə qazanıb. Onun həlledici qarşılaşmada rəqibi Ukrayna təmsilçisi Oksana Livaç olub. Güləşçimiz final görüşünü uğurla (7:1) başa vurub. Bununla, Mariya Stadnik Avropa Oyunlarının 2 qat çempionu adına layiq görülüb.

Elmira Qəmbərova (62 kq) mübarizəyə səkkizdə bir finaldan başlayıb. Güləşçimiz almaniyalı Lutsi Manskeyə (4:0) qalib gələrək dörddəbir finala yüksəlib. Növbəti mərhələdə polşalı Katarina Madrovskanı 9:0 hesabı ilə məğlubiyyətə uğradan Elmira Qəmbərova yarımfinalda rumıniyalı Krişta İnçze ilə qarşılaşıb. Güləşçimiz görüşün əvvəlində hesabda geri düşməsinə baxmayaraq, yüksək əzmkarlıq göstərərək qarşılaşmanı qələbə ilə başa vurub - 4:1. İdmançımız həlledici görüşdə ukraynalı rəqibi Yuliya Tkaça uduzaraq gümüş medalla kifayətlənməli olub.

Alyona Kolesnik yarışa macar rəqibi üzərində parlaq qələbəylə başlayıb. O, 1/4 finalda bolqar idmançısına məğlub olub. Rəqibin finala çıxması Kolesnikə təsəlliverici görüşdə iştirak imkanı verib. İtaliya güləşçisinə tam üstünlüklə qalib gələn Alyona bürünc medal uğrunda qarşılaşmaya vəsiqə qazanıb və həlledici qarşılaşmada türkiyəli rəqibini məğlub edib (9:4). Yekun nəticədə, xanım güləşçilərimiz Minskdə 1 dəst (1 qızıl, 1 gümüş və 1 bürünc) medala layiq görülüblər.



Yunan-Roma güləşçimiz İslam Abbasov (87 kq) ilk görüşdə serbiyalı Nikolay Dobrev üzərində 8:0 hesablı qələbə qazanıb. Dörddəbir finalda Macarıstan təmsilçisi Viktor Lorinsi 3:0 hesabı ilə məğlubiyyətə uğradan güləşçimiz adını yarımfinala yazdırıb. Pəhləvanımız finala vəsiqə uğrunda mübarizədə xorvatiyalı İvan Huklel ilə üz-üzə gəlib. Qarşılaşmanı uğurla başa vuran güləşçimiz finala vəsiqə qazanıb. İslam Abbasov son dünya çempionatının yarımfinalında və Avropa çempionatının finalında da uduzduğu Jan Belenyukla qarşılaşıb. Təcrübəli Ukrayna təmsilçisinə uduzan güləşçimiz gümüş medalla kifayətlənib.

Sabah Şəriəti (130 kq) səkkizdəbir finalda xorvatiyalı Ante Milkoviçi (3:0) məğlub etsə də, dörddəbir finalda Gürcüstan təmsilçisi Yakobi Kacaya ilə görüşdə uduzub - 4:10. Rəqib finala yüksəldiyi üçün Şəriəti təsəlliverici görüşə vəsiqə qazanıb. Litva güləşçisini üstələyən güləşçimiz bürünc medal uğrunda qarşılaşmada iştirak hüququ qazanıb. Həlledici görüşdə Norveç idmançısından güclü olan Şəriəti bürünc medalın sahibi olub.



Beləliklə, güləş üzrə Azərbaycan komandası II Avropa Oyunlarını 10 (3 qızıl, 3 gümüş və 4 bürünc) medalla başa vurublar.

### Boks

"Uruçye Arena"da keçirilən Minsk-2019-un boks yarışlarını Azərbaycan idmançıları 1 qızıl və 1 bürünc medalla başa vurublar. Komandamıza qızıl medalı Alfonso Dominqes qazandırıb. 81 kq çəki dərəcəsində çıxış edən təmsilçimiz ukraynalı Stefan Hrekulu 3:0, belaruslu Mixail Dauhalyavetsi 5:0, belçikalı Ziad El Mohoru 5:0 hesabı ilə məğlub edərək yarımfinala vəsiqə qazanıb. Bu mərhələdə italiyalı Simone Fiorini 4:1 hesabı ilə üstələyən boksçumuz finalda böyük britaniyalı Benjamin Vittakerlə qarşılaşıb. Həlledici görüşdə rəqibinə 3:2 hesabı ilə qalib gələn boksçumuz ikinci Avropa Oyunlarının qalibi adını qazanıb.

Boks yarışlarında komandamıza digər medalı Lorenzo Sotomayor (69 kq) qazandırıb. Mübarizəyə 1/16 finaldan başlayan boksçumuz ilk görüşdə ermənistanlı Qurqen Madoyanı 5:0, 1/8 finalda isə bosniya və herseqovinalı Adem Fetahoviçi 4:1 hesabı ilə məğlub edib. 1/4 finalda kosovolu Patriot Behramini 5:0 hesabı ilə məğlub edən L.Sotomayor yarımfinala yüksəlib. Təmsilçimiz finala vəsiqə uğrunda qarşılaşmada böyük britaniyalı Pat Makkormaka məğlub olaraq bürünc medalla kifayətlənib.

Bununla da idmançımız həm də Avropa çempionatı statusu daşıyan Avropa Oyunlarında bürünc medal qazanıb. Bu, təmsilçimizin mötəbər yarışda ikinci mükafatıdır. Rio Olimpiadasının gümüş mükafatçısı dörd il əvvəl Bakıda keçirilən ilk Avropa Oyunlarının qalibi olmuşdusa, bu dəfə kolleksiyasına bürünc əlavə edib.

Komandmızın digər üzvləri Cavid Çələbiyev (60 kq) və Rüfət Hüseynov (49 kq) isə 1/4 finalda məğlub olaraq yarışları mükafatsız başa vurublar.

### Karate

İkinci Avropa Oyunları çərçivəsində keçirilən karate yarışlarına iyunun 29-da start verilib. Komandamız "Çijovka Arena"da keçirilən karate yarışlarında 1 qızıl, 3 gümüş və 1 bürünc medala sahib çıxıb. Ölkəmizə karate yarışlarında qızıl medalı təmsilçimiz Asiman Qurbanlı (+84 kq) qazandırıb.

Kumite yarışlarında "A" qrupunda mübarizə aparan karateçimiz qrup mərhələsində birinci oyunda hollandiyalı Darnel Ladi Tirona 2:0 hesabı ilə qalib gəlib. Qrupda ikinci görüşdə almaniyalı Conatan Horn ilə xalsız heç-heçə edən A.Qurbanlı sonuncu görüşdə türkiyəli Alparslan Yunusoğlunu minimal hesabla məğlubiyyətə uğradıb. O, yarımfinalda gürcüstanlı Qoqita Arkaniyaya 8:0 hesabı ilə qalib gələrək adını finala yazdırıb. Karateçimiz finalda xorvatiyalı Andjela Kvesiçə 5:0 hesabı ilə qalib gələrək ikinci Avropa Oyunlarının qalibi olub. Mükafatlandırma mərasimindən sonra Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə Asiman Qurbanlı ilə görüşüb, idmançımızı bu parlaq qələbə münasibətilə təbrik edib.



(ardı 4-cü səhifədə)

# II AVROPA OYUNLARI



# Azərbaycan yığması II Avropa Oyunlarında 28 medal qazandı

## 5 qızıl, 13 gümüş, 10 bürünc



(əvvəli 3-cü səhifədə)

Qadınlar arasında keçirilən kumite yarışlarında ölkəmizi təmsil edən İrina Zaretska (68 kq) isə Minsk-2019-un gümüş medalına sahib çıxıb. İlk görüşdə italiyalı Silvia Semeraro ilə qarşılaşan karateçimiz xalsız heç-heçə edib. İdmançımız ikinci qarşılaşmada fransalı Alize Aqieni (7:2), daha sonra isə slovakiyalı Miroslava Kopunovanı (6:0) məğlubiyyətə uğradıb.



Nəticədə 13 xal toplayan karateçimiz yarımfinalda iştirak hüququ qazanıb. Bu mərhələdə ukraynalı Halina Melniki minimal hesabla məğlub edən idmançımız finalda iştirak hüququ qazanıb. Finalda ilk görüşdə qarşılaşdığı italiyalı Silvia Semeraro ilə görüşən karateçimiz 1:5 hesabı ilə uduzaraq, gümüş medalla kifayətlənməli olub. Azərbaycan yığmasının digər üzvü Firdovsi Fərzəliyev (60 kq) mübarizəyə "B" qrupunda başlayıb. Karateçimiz ilk iki görüşdə İlya Bulatovu (Belarus) və Emil Pavlovu (Makedoniya) məğlub edib. Növbəti görüşdə Ancelo Kresçenzo (İtaliya) ilə heç-heçə edən təmsilçimiz qrupda 1-ci yeri tutub. F.Fərzəliyev bu göstərici ilə yarımfinala yüksəlib. Karateçimiz finala vəsiqə uğrunda rusiyalı Yevgeni Plakhutini üstələyib. Təmsilçimiz həlledici görüşdə Latviya idmançısı Kalvis Kalninsə məğlub olaraq gümüş medalla kifayətlənib. Komandamızın digər üzvü Rafael Ağayev (75 kq) qrup mərhələsindəki birinci görüşdə britaniyalı Co Kellaueyi 3:2 hesabı ilə məğlubiyyətə uğradıb. İkinci qarşılaşmada türkiyəli Erman Eltemuru minimal hesabla məğlub edən karateçimiz sonuncu görüşdə macarıstanlı Qabor Harspataki ilə xalsız heç-heçə edib. Bununla da qrupu birinci sırada başa vuraraq yarımfinala yüksələn R.Ağayev finala vəsiqə uğrunda qarşılaşmada estoniyalı Pavel Artamonova 2:1 hesabı ilə qalib gəlib. Karateçimiz finalda ukraynalı Stanislav Horuna ilə üz-üzə gəlib. Görüşdə məğlub olan R.Ağayev ikinci Avropa Oyunlarında Azərbaycanın aktivinə 10-cu gümüş medalı yazdırıb.

Komandamıza bürünc medalı kata yarışlarında yeganə təmsilçimiz Roman Heydərov qazandırıb. İlkin mərhələdə "B" qrupunda çıxış edən karateçimiz 24,63 xalla 3-cü olub. O, bu nəticə ilə turu adlaya bilib.

Təsnifat mərhələsində "B" qrupunda yer alan R.Heydərov 25,40 nəticə göstərib. Qrupda sonuncu olan təmsilçimiz bürünc medal uğrunda mübarizə aparmaq şansı qazanıb. O, üçüncülük uğrunda qarşılaşmada almaniyalı İlya Smorquneri məğlub edərək Minsk-2019-un bürünc medalına sahib çıxıb.

Komandamızın digər üzvləri Nuranə Əliyeva (50 kq) və Rafiz Həsənov (67 kq) isə yarışları mükafatsız başa vurublar.



### Gimnastika

Azərbaycan gimnastları II Avropa Oyunları çərçivəsində bədii gimnastika, akrobatika, batut və idman gimnastikası üzrə yarışlarda mübarizə aparıblar. Qadın idman gimnastımız Marina Nekrasovanın final çıxışı da məhz yarışın son gününə təsadüf edib.Təmsilçimiz final yarışında dayaqlı tullanmada hərəkətlərinə görə 13.466 xal toplayaraq 6-cı yerdə qərarlaşıb.

İdman gimnastikası üzrə final mərhələsində çıxış edən digər təmsilçimiz isə İvan Tixonov olub. Çoxnövçülük proqramında öz gücünü sınayan gimnastımız 80.230 xalla Oyunları 14-cü yerdə başa vurub.

Batutçuların yarışında ölkəmizi təmsil edən Ruslan Ağamirov və İlya Qrişunin sinxron proqramda 47.900 xalla 5-ci yeri tutublar. Bundan əvvəl akrobatlarımız Ruhidil Qurbanlı və Abdulla Məşeyxi ölkəmizə üç medal qazandırmışdılar. Beləliklə, gimnastika üzrə komandamız II Avropa Oyunlarını akrobatlarımızın əldə etdiyi 3 medalla (iki gümüş, bir bürünc) birlikdə yekunlaşdırıb.

### Cüdo

Belarusun paytaxtı Minskdə keçirilən cüdo yarışlarına iyunun 25-də yekun vurulub. Cüdo yarışlarının sonuncu günündə qarışıq komandalar mübarizə aparıblar. Cüdoçularımız səkkizdəbir finalda Fransa seçməsinə uduzublar - 0:4. Komandamızın heyətində Larisa Florian (57 kq), Nuriyə Axundova (70 kq), Rüstəm Orucov (73 kq) və Uşangi Kokauri (+90 kq) çıxış ediblər. Bununla da cüdoçularımızın ikinci Avropa Oyunlarındakı mübarizəsi başa çatıb. Azərbaycan cüdoçuları Minsk-2019-da fərdi yarışlarda 5 medal qazanıblar. Medalların biri gümüş, dördü isə bürüncdür. Gümüş medalı komandamızın aktivinə Minsk-2019-da yığma komandamızın bayraqdarı Rüstəm Orucov (73 kq) yazdırıb. Bürünc medallara isə Hidayət Heydərov (73 kq), Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov (100 kq) və İrina Kindzerska (+78 kq) sahib olublar.

### Badminton

"Falkon klub" da keçirilən badminton yarışlarında ölkəmizi Ezmi Qovimuramadhoni təmsil edib. "G" qrupunda mübarizə aparan badmintonçumuz ilk görüşdə rumıniyalı, növbəti mərhələdə isə lüksemburqlu idmançıya qalib gəlib.



Təmsilçimiz qrup mərhələsinin sonuncu oyununda Vladimir Malkovla (Rusiya) qarşılaşıb. Rəqibinə müqavimət göstərməkdə çətinlik çəkən təmsilçimiz hər iki setdə uduzub - 0:2 (7:21, 11:21). Badmintonçumuz bu məğlubiyyətə baxmayaraq qrup mərhələsində ikinci yeri tutaraq 1/8 finala vəsiqə qazanıb.

Ezmi Qovimuramadhoni 1/4 finala vəsiqə uğrunda Mark Kalyou (Hollandiya) ilə qarşılaşıb. İlk setdə rəqibinə uduzan təmsilçimiz növbəti hissədə qalib gəlmə-



yi bacarıb. Cütün taleyinə 3-cü set aydınlıq gətirib. Həlledici hissədə qalib gələn hollandiyalı 1/4 finala yüksəlib - 2:1 (21:12, 17:21, 21:14). 1/8 finalda uduzan badmintonçumuz ikinci Avropa Oyunlarında çıxışını başa vurub.

### Kamandan oxatma

İyunun 25-də kamandan oxatma yarışlarında 32 final mərhələsinin oyunları keçirilib. Ölkəmzi bu idman növündə təmsil edən Ozay Qasımova Almaniya təmsilçisi Yelena Rixter ilə qarşılaşıb. Təəssüf ki, kamandan oxatanımız bu görüşdə məğlub olaraq (0:6) mübarizəni dayandırıb.



Qeyd edək ki, Ozay Qasımova iyunun 21-də klassik kamandan oxatma üzrə reytinq yarışında 586 xal toplayaraq 1/32 finala vəsiqə qazanmışdı.

### Velosiped idmanı

İyunun 25-də Belarusun paytaxtı Minskdə keçirilən II Avropa Oyunlarında velosiped idmanının şosse növünə yekun vurulub. İdmançılar fərdi startla yürüşdə qüvvələrini sınayıblar. Start xəttinə ayrı-ayrılıqda çıxan velosipedçilər arasında iki Azərbaycan təmsilçisi də yer alıb. Elçin Əsədov finişə 36 dəqiqə 50,80 saniyəyə çatıb. O, yarışı 29-cu pillədə başa vurub. Samir Cəbrayılov məsafəni 37 dəqiqə 39,39 saniyəyə qət edib. Həmyerlimiz 37 idmançı arasında 31-ci olub. Yarışın qalibi adına isə belaruslu Vasil Kiryenka yiyələnib. O, finişə 33 dəqiqə 3,34 saniyəyə çatıb.

Azərbaycan velosipedçisi Sergey Omelçenko da Belarusun paytaxtı Minskdə təşkil olunan II Avropa Oyunlarında qüvvəsini sınayıb. Trek yarışlarında çıxış edən idmançımız sprintdə mübarizə aparıb. Təsnifat mərhələsində 200 metri 10,805 saniyəyə qət edən yığma komandamızın üzvü 22 velosipedçi arasında sonuncu olub. Buna baxmayaraq, S.Omelçenko 1/32 finala yüksəlib. İdmançımız bu mərhələdə polşalı Mateuş Zbiqnev Rudikə rəqib olub. Təmsilçimiz bu mərhələdə məsafəni 10,974 saniyəyə qət edib. Rəqibindən 0,291 saniyə geri qalan velosipedçimiz 1/16 finala yüksələ bilməyib. S.Omelçenko təsəlliverici mərhələyə qatılıb. Belaruslu Artyom Zaytsevin 10,505 saniyə nəticə göstərdiyi mərhələdə təmsilçimiz 0,210 saniyə geri qalıb. O, ispaniyalı Xose Moreno Sançesi 0,363 saniyə qabaqlasa da, mübarizəni dayandırıb.

Belarusun paytaxtı Minksdə, həmçinin velosipedçilərin keyrinq yarışları da keçirilib. Azərbaycan təmsilçisi Sergey Omelçenko da trekə çıxıb. Beş idmançı arasında sonunu olan idmançımız təsəlliverici mərhələdə qüvvəsini sınamalı olub. Bu dəfə də sonuncu olan təmsilçimiz yarımfinal şansını itirib.

### Atıcılıq

İyunun 26-da II Avropa Oyunları çərçivəsində keçirilən kiçikçaplı tapança ilə 25 metrdən atəş açan qadın snayperlərin mübarizəsində təsnifat mərhələsinə yekun vurulub. Yarışa qatılan 35 idmançı arasında Azərbaycan təmsilçisi Nigar Nəsirova da yer alıb. Atıcımız yekunda 551 xal toplayıb. O, bu göstərici ilə sonuncu yeri tutaraq final mərhələsindən kənarda qalıb.

Kişilərin kiçikçaplı tapança ilə 25 metrdən sürətli atəş açma yarışında mübarizə aparan təmsilçimiz Ruslan Lunyov yekunda 573 xal toplayıb. Öz qrupunda birinci olan snayperimiz ümumi nəticədə 13-cü olub.

II Avropa Oyunlarında güllə atıcılığı yarışlarında qarışıq komandalar da kiçikçaplı tapança ilə 25 metrdən sərrastlığını yoxlayıblar. Təsnifat mərhələsində Azərbaycan təmsilçiləri Ruslan Lunyov və Nigar Nəsirova da hədəf önünə keçiblər. Onlar 537 xal toplayıblar. Komandamız təsnifatda 14-cü olub. Növbəti mərhələyə yüksələn "səkkizlik"dən kənarda qalan atıcılarımız mübarizəni dayandırıblar.

Minskdə keçirilən II Avropa Oyunlarında kişi stend atıcılarının skit yarışlarında yığmamızın üzvü Emin Cəfərov da sərrastlığını yoxlayıb.

Təmsilçimiz bu yarışda cəmi 107 xal toplamağa nail olub. O, 29 iştirakçı arasında 28-ci yeri tutub.

Minskdə keçirilən II Avropa Oyunlarının stend atıcılığı yarışlarında qadın snayperlərimiz də skitdə mübarizə aparıblar. Final mərhələsinə vəsiqələr uğrunda yarışda Nurlana Cəfərova 110 xal toplayıb. O, çıxışını 14-cü pillədə başa vurub. Regina Meftahətdinova isə 104 xalla kifayətlənib. O, yekunda 23-cü olub.

Təmsilçilərimiz stenddəki yarışların son günündə skitdə qüvvələrini sınayıblar. Qarışıq komandaların mübarizəsində ölkəmizi Emin Cəfərovla Nurlana Cəfərova təmsil ediblər. 136 xal toplayan snayperlərimiz təsnifat mərhələsini 9-cu yerdə başa vurublar. Komandamız finala yüksələn "dördlük"dən kənarda qalıb.

### Avarçəkmə

Belarusun paytaxtı Minskdə keçirilən II Avropa Oyunlarında kayak və kanoe üzrə avarçəkmə yarışlarında ölkəmizi Mariya Lorena Manolitsa təmsil edib. Qadınlar arasında 1 nəfərlik qayıqla 200 m məsafəyə yarışan rumıniyalı legioner təsnifat mərhələsini uğurla adlasa da, yarımfinal cəhdi uğursuz alınıb. Finiş xəttinə 43,071 saniyəyə çatan xanım idmançı ilk yarımfinalın 9 iştirakçısı arasında 8-ci olub. Qadınlar arasında 1 nəfərlik qayıqla 200 m məsafəyə yarışan təmsilçimiz "B" finalında mübarizə aparan atletimiz finişə 47,295 saniyəyə çatıb. İdmançımız "B" finalında 6-cı yeri tutub. M.Manolitsa bu nəticə ilə yekunda 15-ci olub.

# II AVROPA OYUNLARI

## “Olimpiya dünyası”nın foto-obyektivinin gözü ilə























Müsahibə

***İnsanların sağlamlığı, gənc nəslin zərərli vərdişlərdən uzaqlaşaraq idmana cəlb olunması dövlətimizin prioritet istiqamətlərindəndir. İdman və Olimpiya Hərəkatının inkişaf etdiyi Azərbaycanda 70-dən artıq idman federasiyası fəaliyyət göstərir. Bura həm Olimpiya, həm də qeyri-Olimpiya idman növləri daxildir. Ötən il idman federasiyaları ailəsinin bir üzvü da artıb. Azərbaycan Vinq Çun Döyüş Sənəti Federasiyası yeni yaransa da, az müddətdə xeyli uğurlar əldə etməyi bacarıb.***

***Federasiyanın fəaliyyəti haqqında geniş və ətraflı məlumat almaq üçün idman qurumunun prezidenti, Şərq döyüş növləri üzrə Əməkdar məşqçi, 4 qat dünya çempionu Asif Sayadovla görüşdük.***



# Asif Sayadov:

# "Federasiyanın məqsədi gənc nəslin sağlam və vətənpərvər ruhda böyüməsini təmin etməkdir"

## Vinq çun yalnız döyüş sənəti deyil, həm də sağlam həyat tərzidir

***- Asif müəllim, sizi idmana və məhz vinq-çun döyüş sənətinə bağlayan nə oldu?***

- 1977-ci ildə Qax rayonunun İlisu kəndində dünyaya göz açmışam. 7-ci sinfə qədər İlisu kənd orta məktəbində təhsil almışam. Sonra Qax rayonunda yerləşən Olimpiya İdman Məktəbində oxumuşam, sərbəst güləş idman növü ilə məşğul olmuşam. Valideynlərim məni hüquqşünas görmək istəyirdilər.İlisu kəndi tanınmış insanları, ziyalıları ilə seçilir. Kəndin 160-dan artıq sakini adlı-sanlı insanlardır. Amma idman məni özünə çox çəkirdi. Böyük qardaşım Aydın idmançı idi və mənə də idmanı o sevdirib. Qardaşım idman eləyəndə mən də qaçır, jim edir, turnikdən sallanırdım. O vaxt 5-6 yaşım olardı. Çox təəssüf ki, Qarabağ döyüşlərində onu itirdik. Aydın, Ağdərədə qəhrəmancasına şəhid oldu.

7-ci sinifdən etibarən idmanla peşəkar şəkildə məşğul olmağa başladım.Olimpiya İdman Məktəbində ancaq iki idman növü - güləş və futbol tədris olunurdu.



## Bu döyüş sənəti müdafiədə çox güclü təsirə malikdir

***- Yeni idman federasiyası yaratmaq fikri sizdə necə yarandı?***

- Uşaqlıqdan küçədə vuruşmağı, döyüşməyi çox sevirdim. Özümdə sanki bir döyüşçü ruhu olduğunu hiss edirdim. Bir müddət güləş, karate, sambo, kikboksinq idman növləri ilə məşğul olsam da, axtardığım başqa bir şey idi. Qax Olimpiya İdman Məktəbini bitirdikdən sonra 1999-cu ildə Bakı Biznes Universitetinə daxil oldum. Tələbəlik illərində idmanın kunq-fu növü ilə məşğul olurdum. Bu idman növü üzrə 4 qat dünya çempionu tituluna layiq görülmüşəm, 8 dəfə Azərbaycan birinciliyinin qalibi olmuşam. Sonra kunq-funun şaolin növünə həvəs göstərdim. Bu idman növünün incəliklərinə yiyələnmək üçün Çində, Şaolin məbədində oldum. Portuqaliya, Rusiya və digər ölkələrə üz tutdum. Amma hələ də istədiyimi tapmamışdım. Portuqaliyada olanda Çin döyüş sənətinin vinq çun növü ilə tanış oldum. Müdafiə üçün bu döyüş sənətinin unikal və əvəzedilməz olduğunu dərk etdim. 2008-ci ildə vinq çun döyüş sənəti assosasiyasının nümayəndəliyini Bakıya gətirməyə nail oldum. Ötən 11 il ərzində bir sıra yerli və xarici federasiyalarla sıx əlaqələr yaratmağa nail olduq. Müxtəlif Avropa və dünya çempionatlarında idmançılarımızın iştirakı təmin olundu.Vinq çun idman klubu təsis etdik və bura tələbə idmançıları cəlb etməyə başladıq. Əvvəllər bu idman növünün həvəskarları çox az idi, halbuki indi onların sayı 500-ü keçib. Hazırda paytaxt (10) və bölgələrdə (2-Qax, Lənkəran) ümumilikdə, 12 idman klubumuz fəaliyyət göstərir. Sentyabr ayında isə daha bir klubumuzu Qubada açmağı planlaşdırırıq. Seçim yaş qruplarına görə və kateqoriya (həvəskar və peşəkar) əsasında aparılır. Tələbələrimiz arasında idmanla peşəkar məşğul olanlar və güc strukturlarının nümayəndələri (mühafizə, polis, əməliyyat işçiləri) də var.

***-Yetirmələriniz haqqında nə deyə bilərdiniz?***

- Mən bu sahədə peşəkar döyüşçü olmaqla yanaşı, həm də məşqçilik fəaliyyəti ilə məşğul oluram. Yetirmələrimin arasında istedadlı idmançılar çoxdur. Təxminən iyirmi tələbəm bir çox beynəlxalq turnirlərin və dünya çempionatlarının qalibləridir və təbii ki, uğur və naliyyətlərimiz davam edir. Bir məşqçi kimi uğurlarım yüksək qiymətləndirilib və 2011-ci ildə "Şərq döyüş növləri üzrə respublikanın Əməkdar məşqçisi" fəxri adına layiq görülmüşəm. 2015-ci ildə Almaniyada keçirilən Beynəlxalq seminarda "İlin ustası" titulu almışam.

Valideynlərim məni hüquqşünas görmək istəsələr də, idmana olan həvəsim, sevgim məni Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına gətirdi və mən ikinci təhsilimə böyük idman və elm ocağında yiyələndim.

***- Bildiyimizə görə, Azərbaycan Vinq Çun Federasiyası buyaxınlarda 1 yaşını qeyd etdi?***

- Doğma Azərbaycanımız artıq bütün dünyada idman ölkəsi kimi tanınır. Bunu respublikamızda yaradılan idman infrastrukturu, idmanın kütləviliyi, eləcə də, burada keçirilən irimiqyaslı idman yarışları da təsdiq edir. Ölkəmizdə Olimpiya idman növləri ilə yanaşı, qeyri-Olimpiya idman növləri də uğurla inkişaf etdirilir. Yuxarıda qeyd etdiyim kimi, vinq çun ölkəmizdə 11 ildən artıq müddətdə inkişaf etdiyi halda federasiyamız 2018-ci ildə yaradıldı. Həmin vaxta qədər çətin mərhələləri arxada qoyduq və xeyli uğurlarımız oldu. 2015-ci ildə Beynəlxalq Vinq Çun Assosiasiyasının prezidenti Qrandmaster Samuel Kvok ölkəmizə səfər etdi. Azərbaycan Gənclər və İdman Nazirliyində görüşlərimiz oldu, ustadlar dərs keçdilər. Gənclərimiz bu idman növünə həm də döyüş sənəti üzrə məşhur döyüş ustası, idmançı və aktyor Bryüs Liyə görə maraq göstərməyə başladılar. Vinq çun tez bir zamanda ölkəmizdə tanınmağa, sevilməyə başlandı. Beləliklə, Azərbaycan Vinq Çun Döyüş Sənəti Federasiyası 2018-ci ilin yayında təsis edildi və qurumun rəhbərliyi təsdiq edildi. Federasiyanın prezidenti mən, birinci vitse-prezidenti Jalə Əhmədova, vitse-prezidentlər Ramin Əliyev və Mahmud Mehtioğludur. İyunun 16-da federasiyamız da ad günün qeyd etdi. Mərasimdə 1 il ərzində görülən işlər və qazanılan uğurların hesabatı dinlənildi. Əlfi Məmmədov təşkilat komitəsinin sədri, Urxan Orucov böyüklər üzrə baş məşqçi təyin olundu. Federasiyanın məqsədi idmanın bu növünü ölkəmizdə inkişaf etdirmək, gənc nəslin sağlam və vətənpərvər ruhda böyüməsinə nail olmaqdır.Ölkəmizin idman şərəfini layiqincə qorumaq üçün idmançılarımız üçün əlverişli şərait yaratmaq prioritet istiqamətlərimizdəndir.

## "Dürüst ol", "Gücünü zəiflərə göstərmə"

***- Vinq çun döyüş sənətinin özəlliyi nədədir?***

- Vinq çun qədim və dərin fəlsəfəsi olan döyüş sənətidir. Eyni zamanda, vinq çun yalnız döyüş sənəti deyil, həm də sağlam həyat tərzidir. Kunq-fu, şaolin döyüş sənətinin 1500 il tarixi olduğu halda, vinq çunun cəmi 300 il yaşı var, yəni daha müasir və təkmilləşdirilmiş növdür.

Şaolin və kunq-fu idman növləri üzrə uzun müddət məşqçilik etmişəm. Amma vinq çun məni fəlsəfəsi ilə və özünəməxsusluğu ilə həmişə özünə çəkib. Mən ilk dəfə onun fəlsəfəsi ilə maraqlananda sanki müqəddəs kitabımız Qurani-kərimi yenidən oxudum. "Dürüst ol", "Gücünü zəiflərə göstərmə", "Həmişə xeyirxah ol". "Var kimi ol, yox kimi görsən"və s. Axırıncı ifadənin mənası belədir ki, sən nəsə edə bilirsənsə, sənin ustadını kim olduğunu heç kəs bilməməlidir. Anladım ki, sonunda axtardığım idman növünü tapmışam. Vinq çun döyüş sənəti ucu-bucağı görünməyən okeanı xatırladır. Öyrəndikcə, öyrənirsən. Əsası da odur ki, burada yaş həddi yoxdur. Bu idman növü ilə 6 yaşdan 60 yaşa kimi məşğul olmaq mümkündür.

Bu idman növündə zəka və sürət vacib şərtdir. Elə bir fiziki güc və qayda da yoxdur. Döyüş üçün ən yaxşı müdafiə üsuludur. Vinq çun güləş, boks, kikboks və s. döyüş üsullarını özündə birləşdirir. Bir sözlə, ağıl və sürət hesabına traektoriyanı (bədəndə müəyyən nöqtələri) müəyyənləşdirərək əl və ayaq hərəkətləri ilə maneəni dəf etməyi bacarmaq lazımdır.Burada maksimum 10 dəqiqəyə döyüş bitməlidir.

***- Aprel ayında vinq çun üzrə keçirilən Azərbaycan çempionatı ilə bağlı fikirlərinizi bilmək istərdik.***

-Azərbaycan çempionatı Honk-Konqda keçiriləcək dünya çempionatına seçim xarakteri daşıyırdı. Yarış yüksək səviyyədə təşkil olunmuşdu. Aprelin 20-də Bakı İdman Sarayında vinq çun üzrə birinci respublika çempionatının açılış mərasimi keçirildi. Gənclər və İdman Nazirliyinin və Azərbaycan Vinq Çun Döyüş Sənəti Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən çempionatda idmançılar uşaqlar, yeniyetmələr, gənclər və kişilər mübarizə apardılar.

Açılış mərasimində Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Bakı Biznes Universitetinin rektoru, professor İbad Abbasov, Ali Məhkəmənin hakimi Fərhad Əliyev, Azərbaycan Döyüş Növləri Federasiyaları Assosiasiyasının vitse-prezidenti Vasif Namazov, Azərbaycan Şaolin və Savat Döyüş Federasiyasının prezidenti Rafiq Əliyev, eləcə də, Aprel döyüşlərinin iştirakçıları, Türkiyə, Səudiyyə Ərəbistanı, Yunanıstan və Çinin ölkəmizdəki səfirliklərinin nümayəndələri iştirak edirdilər. Yarışın sonunda Aprel şəhidi, vinq çun üzrə Azərbaycan çempionu olmuş Cabbarxan Hacıağayevin anasına qızıl medal və diplom təqdim edildi.

Çempionat Dünya Vinq Çun Birliyinin qaydalarına əsasən iki kateqoriya - vinq çun-kontakt və vinq çun-taolu üzrə keçirildi.Respublika birinciliyində 20 klubdan 300 yaxın idmançı iştirak etdi.Çempionatda birinci yeri tutacaq idmançılar yığma komandanın heyətində sentyabr ayında Hon-Konqda keçiriləcək dünya çempionatına vəsiqə qazandılar.

***- Qarşıda hansı planlarınız vardır?***

- Sentyabr ayında Honk-Konqda keçiriləcək dünya çempionatına hazırlaşırıq. Yığmamız təlim-məşq toplanışlarını Qaxda keçirəcək.

Qeyd edim ki, dünya çempionatının gedişində beynəlxalq qurumun iclası keçiriləcək. Həmin iclasda müzakirə olunacaq məsələlərdən biri də 2020-ci ildə vinq çun üzrə Avropa çempionatının ölkəmizdə keçirilməsi məsələsi müzakirə ediləcək. İnanırıq ki, ev sahibliyi hüququ ölkəmizə veriləcək və paytaxtımız idman tarixində daha bir uğura imza atacaq.







***Səadət Hakıyeva***

## Uşaq paralimpiya hərəkatı sahəsində əldə olunmuş təcrübə müzakirə edilib

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimovun rəhbərlik etdiyi nümayəndə heyəti ikinci Avropa Oyunları çərçivəsində Belarus Milli Paralimpiya Komitəsinin dəvəti ilə Minskdə rəsmi səfərdə olub.



AMPK-nin prezidenti İlqar Rəhimov UNİCEF-in Belarus Respublikasındakı nümayəndəliyinin rəhbəri Raşed Mustafa ilə görüşüb. Görüşdə Azərbaycanda uşaq paralimpiya hərəkatı sahəsində əldə olunmuş təcrübə və UNICEF-in bu məsələdə rolu haqqında məlumat verilib. Söhbət zamanı Belarus Respublikasında uşaq paralimpiya hərəkatının inkişafı sahəsində UNİCEF-in bu ölkədəki nümayəndəliyinin rolu, gələcəkdə uşaqlar arasında beynəlxalq yarışların keçirilməsi geniş müzakirə edilib və bu sahədə əməkdaşlığın vacibliyi qeyd olunub.

Görüşdə Milli Paralimpiya Komitəsinin birinci vitse-prezidenti Natiq Qasımov da iştirak edib.

Beynəlxalq təcrübədə ilk dəfə 2013-cü ildə Azərbaycan Milli Paralimpiya Komitəsinin nəzdində Uşaq Paralimpiya Komitəsi yaradılıb.

## Gimnastlarımız Polşada 10 medal qazandılar

Gimnastlarımız Polşanın Qdansk şəhərində keçirilən bədii gimnastika üzrə beynəlxalq turnirdə iştirak ediblər. Təmsilçilərimiz yarışı 10 medalla başa vurublar.

Gənclər arasında fərdi proqramda çıxış edən Arzu Cəlilova topla hərəkətlərinə görə gümüş, gürzlərlə kompozisiyasında isə bürünc medal qazanıb. Komanda yoldaşı Nərminə Səmədova da lentlərdə çıxışına görə gümüş



medala sahib çıxıb. Gimnastlarımız, həmçinin komanda hesabında da fərqlənərək, qızıl medal əldə ediblər.

Qrup hərəkətləri komandalarımız isə bütün mümkün finallarda uğurlu performans nümayiş etdirərək, hər birində medal qazanmağa nail olublar. Belə ki, Fəridə Səfiyarzadə, Ləman Əlimuradova, Milana Əkbərova, Mədinə Əsədova və Selcan Hacızadədən ibarət gənc qrup hərəkətləri komandamız hesablarına tam 1 dəst medal yazdırıb. Gənc gimnastlarımız çoxnövçülükdə gümüş, halqa ilə kompozisiyalarına görə bürünc, lent ilə çıxışlarına görə isə ən yüksək xalla qızıl medala layiq görülüblər.

Böyüklər arasında mübarizə aparan Narın Qurbanova, Güllü Ağalarzadə, Nərmin Cahangirova, Humay Əliyeva və Sona Rəhmanovadan ibarət qrup hərəkətləri komandası da çoxnövçülük, top, həmçinin halqa-gürzlərlə çıxışlarına görə bürünc medal qazanıblar.

## Milli komandamız hazırlıqlara başlayıb

Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarının avqustun 1-dən 3-dək Braziliyada keçiriləcək təsnifat mərhələsində iştirak edəcək voleybol üzrə milli komandamız məşqlərə start verib. Qızıl Avropa Liqasında millimizin heyətində çıxış edən oyunçuların əksəriyyəti gənclər olsa da, Olimpiya təsnifat oyunlarında millimizin bütün üzvləri iştirak edəcəklər.

Voleybol Mərkəzində məşqlərə başlayan millimizin təlimləri iki komanda formatında təşkil olunacaq. Milli komandanın baş məşqçisi Covanni Kaparara Olimpiya təsnifat mərhələsində iştirak edəcək oyunçuları hazırda məşq edən iki komandadan seçəcək.

Millimiz təsnifat mərhələsində D qrupunda Dominikan Respublikası, Kamerun və Braziliya yığmaları ilə bir qrupda mübarizə aparacaq.

## Neft Fondu xalqımızın və dövlətimizin mənafeyinə xidmət edir

***Azərbaycanın dünyada iqtisadi qüdrəti və geosiyasi əhəmiyyəti getdikcə və durmadan artır. Prezident İlham Əliyev tərəfindən müəyyən edilən iqtisadi kurs əsasında bu istiqamətdə məqsədyönlü siyasət aparılır, çoxsaylı dövlət proqramları həyata keçirilir, strategiyalar, konsepsiyalar reallaşdırılır, inteqrasiya prosesləri genişləndirilir.***

Respublikamız dünyada neft və qaz ixrac edən ölkələrdən biri kimi tanınır. Təkcə bir faktı demək kifayətdir ki, son 23 ildə ölkə iqtisadiyyatına qoyulan təxminən 263 mlrd.dollarlıq investisiyanın 100,6 mlrd. dolları neft sektorunun payına düşür. İndiyədək çıxarılmış 2 milyard ton neftin təxminən 700 milyon tondan çoxu bu il 101 yaşını qeyd etdiyimiz müstəqillik dövründə hasil olunub. Bir əsrdə iki dəfə müstəqillik yaşayan Azərbaycanımız istər iqtisadi, istər siyasi, istərsə də idman sahəsində Qafqaz regionunun təmsilçisi kimi bütün dünyada tanınır. Gündən-günə çiçəklənən respublikamız nəhəng iqtisadi və siyasi forumların, seminarların, idman üzrə dünya və Avropa çempionatlarının, Qran-pri yarışlarının və digər yüksək səviyyəli beynəlxalq tədbirlərin təşkilatçısı və məkanına çevrilib. Paytaxt Bakı bu il mayın 29-da 26-cı Beynəlxalq “Xəzər Neft və Qaz” konfransına ev sahibliyi etdi. Bakı həm də “Dünya Neft Şurası”nın 2023-cü ildə keçiriləcək 24-cü Dünya Neft Konqresinə ev sahibliyi üçün öz namizədliyini verib. Bütün bunlar onu göstərir ki, Azərbaycanın iqtisadiyyatı yüksək sürətlə inkişaf edir və inkişafda Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) və Azərbaycan Dövlət Neft Fondunun (ADHF) xüsusi payı vardır.











### “Əsrin müqaviləsi” ölkə iqtisadiyyatının yüksəlişinə təkan verdi

Respublikamızın bugünkü uğurları, nailiyyətləri dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin gərgin əməyi sayəsində yaradılmış zəngin infrastruktur potensialının gücünə əsaslanır. Ulu öndər qədim tarixi olan neft-qaz sənayemizi müstəqillik illərində yeni və misilsiz inkişaf mərhələsinə çatdırmışdır. Heydər Əliyevin siyasi qətiyyətinin və uzaqgörənliyinin bariz təzahürü olan və 1994-cü il sentyabrın 20-də imzalanan “Əsrin müqaviləsi” ölkə iqtisadiyyatının yüksəlişində önəmli rol oynadı. “Əsrin müqaviləsi”ndə dünyanın 8 ölkəsinin 13 ən məşhur neft şirkəti iştirak edirdi. Bu müqavilədə qoyulacaq investisiyanın ən çox faizi Azərbaycan Dövlət Neft Şirkətinin (20 faiz) və Böyük Britaniyanın “British Petroleum” şirkətinin (17,12 faiz) payına düşürdü. Hazırda Fransa, Türkiyə, Yaponiya, İtaliya ölkələri də bu müqaviləyə qoşulublar.

Dəyəri 7,4 milyard dollar olan müqavilə çərçivəsində 1997-ci ildən başlayaraq, 22 il ərzində “Azəri-Çıraq-Günəşli” (AÇQ) yataqlarından 485 milyon ton neft və 158 milyard kubmetr təbii qaz hasil edilib. AÇQ yatağında bu günə qədər yatırılan investisiyaların həcmi 36 milyard dollar təşkil edir. Bugünkü günə kimi ölkəmizdə 2 milyard 58 milyon ton neft hasil olunub ki, onun da 746 milyonu müstəqillik dövrünə aiddir. Hazırda isə gündəlik orta neft hasilatı təxminən 770 min barel təşkil edir.

### “Biz “qara qızıl”ı insan kapitalına çevirə bildik”

Əsrin müqaviləsi layihəsinin ilk günlərindən ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyev yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçılarından oldu. Onun bütün fəaliyyətinin mərkəzində özünün yığcam şəkildə ifadə etdiyi ideya dururdu: “Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir”. Bu sözlərin təsdiqi 23 il sonra ölkə rəhbəri İlham Əliyevin 2017-ci il noyabrın 8-də Heydər Əliyev Mərkəzində Azərbaycanda 2 milyardıncı ton neftin hasilatı ilə bağlı təntənəli mərasimdəki çıxışında öz əksini tapdı: ““Əsrin kontraktı”nın nəticələri, sadəcə olaraq Neft Fonduna gələn gəlirlərlə ölçülmür. Bunun çox geniş və çox böyük təsiri olub və bu gün də var. Biz “qara qızıl”ı insan kapitalına çevirə bildik”.

“Əsrin müqaviləsi”nin imzalanmasından 5 il sonra, 1999-cu ilin dekabrında Azərbaycanın “mənfəət nefti” ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı. Bu neftin satışından əldə edilən valyuta Azərbaycan Respublikası Dövlət Neft Fondunun hesabına daxil edildi. 1999-cu ildə ümummilli lider tərəfindən yaradılan Neft Fondu xalqımıza və dövlətimizə xeyir verir, respublikamızın çiçəklənməsi, qüdrətlənməsi üçün səmərəli və aktiv fəaliyyət göstərir.

Müqavilənin icrası nəticəsində minlərlə azərbaycanlı mütəxəssis təlim və təhsil aldı, işlə təmin olundu. Sevindirici haldır ki, bugünkü gündə konsorsiumun işçilərinin əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Bir sözlə, 1994-cü il Azərbaycanın neft sənayesində dönüş nöqtəsi oldu və ümummilli liderin həyata keçirdiyi “Əsrin müqaviləsi”nin tarixi əhəmiyyəti özünü sübuta yetirdi. Ümumiyyətlə götürdükdə, ölkəmizdə görülən quruculuq-abadlıq işlərinin, dayanıqlı iqtisadiyyatımızın, böyük valyuta ehtiyatlarımızın əsas mənbəyi “Əsrin müqaviləsi”dir, desək, yanılmarıq.

2017-ci ildə müqavilənin müddətinin 2050-ci ilə qədər və daha yaxşı şərtlərlə uzadılması Azərbaycanın neft iqtisadiyyatında mühüm hadisə idi. Razılaşmaya əsasən, Dövlət Neft Şirkətinin payı 11 faizdən 25 faizə qaldırıldı. İcra prosesində Azərbaycana 3,6 milyard dollar bonus şəklində veriləcək, eyni zamanda, 2050-ci ilə qədər mənfəət neftinin 75 faizi ölkəmizə qalacaq.

Ölkəmizin neft iqtisadiyyatında irəli atılan növbəti mühüm addımlardan biri də 1999-cu ilin noyabrında Bakı-Tbilisi-Ceyhan (BTC) “Əsas İxrac Neft Kəməri”nin çəkilişi haqqında dövlətlərarası müqavilənin imzalanması oldu. XXI əsrin ən böyük enerji layihəsində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan dövlətləri iştirak edirdi. BTC istismara verilən gündən, yəni 2006-cı il yayından 2007-ci ilin sonunadək olan müddətdə Ceyhan limanından 36 milyon 796 min 555 ton Azərbaycan nefti dünya bazarlarına yola salındı. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri Azərbaycan neftinin Avropa və dünya bazarlarına daha böyük həcmdə nəql edilməsinə imkan verdi.

Azərbaycanın neft ehtiyatları tükənmir və təsadüfi deyil ki, respublikamız Davos İqtisadi Forumunun qiymətləndirməsi baxımından dünyada neft ixracına görə 35-ci yerdə qərarlaşıb. Müqayisə üçün qeyd edək ki, 1997-ci ildə respublikada neft hasilatı 9 milyon ton idisə, 2007-ci ildə bu rəqəm 40 milyon tonu keçmişdir. 2017-ci ildə respublikada 38 mln. 756 min ton neft, 28 mlrd. 362,6 mln. kubmetr qaz hasil olunub. 2018-ci ildə bu rəqəm 38 mln. 814 min ton (neft) və 30 mlrd. 205 mln. kubmetr (qaz) təşkil edib. 2019-cu ildə isə ölkəmizdə neft hasilatının 38 mln. 496,4 min ton, qaz hasilatı isə 36 mlrd. 909,2 mln. kubmetr həcmində proqnozlaşdırılır.

### Neft Fondu Azərbaycanın çiçəklənməsinə və tərəqqisinə xidmət edir

Neft hasilatında əldə olunan nailiyyətlər dünyanın brend markalarından birinə çevrilən SOCAR-ın inkişafı üçün geniş imkanlar yaradır. Şirkət ölkəmizdə gedən böyük quruculuq və yüksəliş proseslərində yaxından iştirak edir. Qurum tərəfindən ölkə daxilində və xaricdə bir sıra iri investisiya layihələri həyata keçirilir. Gürcüstanda, İsveçrədə, Türkiyədə, Rumıniyada, Ukraynada və bir çox başqa ölkələrdə əldə edilən aktivlər beynəlxalq enerji sektorunda şirkətin mövqeyini daha da gücləndirir. Ölkəmizdə qeyri-neft sektorunun inkişafına və iqtisadiyyatın şaxələndirilməsinə mühüm töhfə olacaq SOCAR Polimer, SOCAR Karbamid layihələri, Türkiyədə STAR neft emalı zavodunun inşası məhz bu məqsədlərə xidmət edir. Heydər Əliyev adına neft emalı zavodunun, “Azərikimya”nın, PETKİM-in modernləşdirilməsi layihələri də eyni strategiyanın tərkib hissəsidir. Bu müəssisələr bir-birinin məhsullarından xammal kimi istifadə etməklə yeni istehsal sahələrinin yaradılmasına təkan verir.

Azərbaycan Dövlət Neft Fondunun fəaliyyəti çox genişdir. Fondun xaricə qoyduğu investisiyalar milyard dollarla ölçülür. Təkcə Türkiyədəki layihələrə 20 milyard dollara yaxın sərmayə qoyulması nəzərdə tutulub ki, onun təxminən yarısı artıq yatırılıb. SOCAR digər ölkələrdə, ümumiyyətlə, dünyada böyük layihələr həyata keçirir, sərmayələr qoyur. Yeni mənbələrdən böyük həcmdə valyuta axını ölkəmizin iqtisadi gücünü artırır, insanların rifah halını yaxşılaşdırır. Neftdən əldə olunan bütün gəlirlər Dövlət Neft Fondunda şəffaf şəkildə saxlanılır. Beynəlxalq auditdən keçən və dünyanın ən şəffaf neft fondlarından biri olan ARDNF-də həm ehtiyat yığılır, həm də ən vacib sosial və infrastruktur layihələrində bu vəsaitdən istifadə olunur. Bu layihələrdən biri də məcburi köçkünlərin problemlərinin həllidir. İndiyədək paytaxtda 100-dən artıq şəhərcik salınıb. Sonra paytaxt və bölgələrdə orta məktəblərin inşası və bərpası işləri, infrastruktur layihələrini buna missal göstərmək olar. Təbii ki, bura neft sənayesinin inkişafı ilə bağlı olan layihələr də daxildir. Xüsusilə, nəhəng qazma qurğusunun tikintisi də Dövlət Neft Fondunun xətti ilə maliyyələşdirilir. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi də məhz bu fondun maliyyə dəstəyi ilə həyata keçirilib. Bu yolun böyük hissəsi (504 km) Azərbaycan ərazisindən keçir. Gürcüstan ərazisindən 200 km-dən çox hissəsi keçir ki, orada da maliyyə və texniki məsələləri Azərbaycan həll edir. Yolun uzunluğu təxminən 850 km-ə yaxındır. Bir sözlə, Azərbaycan Dövlət Neft Fondu regionların sosial-iqtisadi inkişafı layihələrinin həyata keçirilməsində, Heydər Əliyev Fondunun təşəbbüslərinin reallaşmasında, respublikamızda elmin, təhsilin, səhiyyənin, mədəniyyətin, idmanın davamlı inkişafında əzmlə çalışır və öz töhfəsini verir.

SOCAR həm də ölkəmizdə keçirilən irimiqyaslı idman yarışlarının ən fəal sponsorudur. Azərbaycanın ev sahibliyi etdiyi Formula 1 Qran-pri yarışları, cüdo, şahmat və UEFA-nın bayrağı altında keçirilən futbol yarışları məhz bu şirkətin maliyyə dəstəyi ilə təşkil edilir.

Heydər Əliyevin neft strategiyası bu gün yeni istiqamətlərlə zənginləşdirilmişdir. Bu strategiya bu gün Azərbaycanın ümumi inkişafına çox böyük dəstək verir. Bu gün hər birimiz Heydər Əliyev siyasətinin davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında dövlətimizin təkmilləşdirilmiş iqtisadi strategiyasının uğurlu nəticələrini aydın və əyani şəkildə görürük. “Odlar Yurdu” Azərbaycan müstəqillikdən keçən qısa müddət ərzində böyük inkişaf yolu keçib. Ölkəmizin siması inanılmaz dərəcədə dəyişib, iqtisadiyyat şaxələndirilib, sənaye, xüsusilə, qeyri-neft sektoru inkişaf yoluna qədəm qoyub, xalqımızın maddi rifah halı davamlı olaraq yaxşılaşıb, neft gəlirləri insan kapitalına çevrilib və bu proses durmadan davam edir.

***Səadət Hakıyeva***

*“ARDNF-nin yaradılmasının 20-ci ildönümü münasibətilə “Suveren fondların inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında rolu: Azərbaycan Respublikası Dövlət Neft Fondunun timsalında” mövzusunda keçirdiyi müsabiqəyə təqdim olunur”*

# FİDE Prezident Şurasının Bakıda keçirilən iclasına yekun vurulub

***Beynəlxalq Şahmat Federasiyasının (FİDE) Prezident Şurasının Bakıda keçirilən iclasına iyunun 29-da yekun vurulub.***

***İkigünlük toplantıda 40-a yaxın məsələ müzakirə edilib, təkliflər irəli sürülüb və fikir mübadiləsi aparılıb.***

İclasdan əvvəl FİDE-nin vitse-prezidenti Nayçel Şort çıxış edərək Argentinanın Folklend Adalarında şahmat turnirinin keçirilməsinə etiraz edərək Beynəlxalq Şahmat Federasiyası tərəfindən nəticələrin qəbul olunmamasını təklif edib. FİDE rəsmiləri təklifi qəbul ediblər.

FİDE-nin və Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Mahir Məmmədov heç bir dövlət tərəfindən tanınmayan ərazilərdə turnirlərin keçirilməsinin məqsədəuyğun olmadığını bildirib. FİDE rəsmisi Azərbaycan ərazilərinin 20 faizinin işğal edildiyini xatırladaraq həmin torpaqlarda şahmat turnirlərinin yalnız Azərbaycan Şahmat Federasiyası tərəfindən keçirilməsinin mümkünlüyünü qeyd edib. O, FİDE-nin belə hallara diqqətli yanaşmasını və bu barədə qurumun nizamnaməsinə əlavələr olunmasının vacibliyini qeyd edib.




FİDE rəsmiləri maliyyə şəffaflığını təmin etmək üçün illik büdcə barədə müzakirələr aparıblar. İllik xərclərə yenidən baxılıb və yaranmış bəndlər üzrə bölgülər aparılıb. Toplantıda Avropa Şahmat İttifaqının keçirdiyi yarış və tədbirlər barədə hesabat məruzəsi dinlənilib. O cümlədən bütün qitələr üzrə şahmatın vəziyyəti müzakirə edilib, təşkil olunan yarışların hesabatı təqdim olunub.

FİDE-nin rəsmi saytının yenilənməsi, eləcə də, loqoya dəyişiklik edilməsi ilə bağlı müzakirələr aparılıb, təkliflər dinlənilib. Xüsusilə fide.com saytının dizayn baxımından funksional dəyişikliyə ehtiyac olması qeyd edilib, qısa zamanda yeni versiyanın hazırlanması ilə bağlı tapşırıqlar verilib.

İclasda Kayman Adalarının FİDE üzvlüyünə qəbul edilməsi təklif olunub. Bununla bağlı Kayman Adalarında şahmata maraq və digər amillər barədə məlumat verilib. Prezident Şurasının iclasında BMT və Beynəlxalq Olimpiya Komitəsinin prinsiplərində bu məsələ ilə bağlı ziddiyyətlərin olduğu əsas gətirilərək təklifin müzakirəsinə ehtiyac olduğu vurğulanıb.

Prezident Şurasının iclasında idmanın siyasətdən kənar olduğu növbəti dəfə qeyd edilib. İki ölkə arasında elan olunmamış müharibə vəziyyətinin davam etməsinə baxmayaraq, Azərbaycan şahmatçılarının Ermənistan təmsilçiləri ilə mübarizədən yayınmamaları müsbət hal kimi nümunə göstərilib. FİDE nümayəndələri məsələ ilə bağlı xüsusi qərarın qəbul olunmasını təklif ediblər. Vurğulanıb ki, münaqişədə olan ölkələrin şahmatçıları beynəlxalq yarışlarda mübarizə aparmaqdan imtina etməməlidirlər. Müzakirələrin nəticəsi olaraq, ilk dəfə mübarizədən imtina edən şahmatçıya xəbərdarlıq ediləcək, bu hal təkrarlanacağı halda cəza tətbiq olunacaq.

Eyni zamanda, FİDE Baş Assambleyasının iki ildə bir dəfə deyil, hər il toplaşması məsələsi qəbul olunub.




## Cüdoçularımız Avropa birinciliyini 4 medalla başa vurublar

Polşanın paytaxtı Varşavada yeniyetmə cüdoçular arasında keçirilən Avropa birinciliyinə yekun vurulub. Qitənin ən nüfuzlu yarışında 39 ölkədən 431 yeniyetmə cüdoçu medallar uğrunda mübarizə aparıb. Azərbaycanı yarışda 18 idmançı (10 oğlan, 8 qız) təmsil edib. Polşa turnirinin ilk günündə Turan Bayramov (60 kq) qızıl, Kamran Süleymanov və Nicat Məmmədli (hər ikisi 55 kq) isə bürünc medala sahib olublar. Qitə birinciliyinin son günündə Azərbaycan millisi aktivinə daha bir medal yazdırıb. Ən ağır çəkidə (+90 kq) mübarizə aparan Hüseyn Məmmədov Avropa çempionatının bürünc medalını qazanıb. Cüdoçumuz üçüncü yer uğrunda görüşdə Fransa təmsilçisi Matias Anglioninə qalib gəlib.

Beləliklə, Azərbaycan cüdoçuları Avropa birinciliyini 1 qızıl və 3 bürünc medalla başa vurublar.

## Komandamız Krakovda uğurla çıxış edib

Polşanın Krakov şəhərində keçirilən 15 yaşadək güləşçilər arasında Avropa çempionatına yekun vurulub. İki güləşçimiz qitə birinciliyinin qalibi adını qazanıb.



Komandamız qitə birinciliyini 6 (2 qızıl, 1 gümüş, 3 bürünc) medalla başa vuraraq Avropa üçüncüsü olub.

Qızıl medalları komandamıza Fərahim Mustafayev (38 kq) və Təvəkkül Həziyev (48 kq) qazandırıblar. Cocu Səmədov (75 kq) gümüş, Rahim Həsənov (38 kq), Pərviz Dadaşov (41 kq) və Fərid Xəlilov (52 kq) isə bürünc medala layiq görülüblər.

## Beynəlxalq memorial yekunlaşıb

Əməkdar məşqçi Əfqan Səfərovun xatirəsinə həsr olunmuş beynəlxalq memoriala yekun vurulub.

Gənclər və İdman Nazirliyinin və Azərbaycan Atletika Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən turnirdə Azərbaycan, Belarus, Qırğızıstan və Gürcüstandan olan atletlər iştirak ediblər. Turnirdə yeniyetmə oğlanlar və qızlar atletikanın bütün növləri üzrə mübarizə aparıblar. Yarışlarda Azərbaycanı klubları ilə yanaşı, rayonlardan olan idmançılar da təmsil ediblər.

Beynəlxalq turnirin ikinci günündə oğlanlar arasında uzunluğa tullanma yarışında azərbaycanlı atlet Çingiz İsrafilov, nüvəitələmədə belaruslu Stanislav Karlov qalib gəliblər. Qızların yarışında isə uzunluğa tullanmada gürcüstanlı Medeya Shoniya, nüvəitələmədə belaruslu atlet Alina Nikitsenka birinci yeri tutublar.



Oğlanlar arasında qaçış yarışlarında Əli Abdıyev (200 m) və Vahid Kərimov (800 m) birinci olub. Qızların mübarizəsində isə Lamiyə Vəliyeva (200 m) və qırğızıstanlı atlet Aynuşka Kalilqızı (800 m) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Qaliblər federasiya və nazirlik tərəfindən diplom və medallarla təltif olunublar.

## *Paralimpiyaçılarımız beynəlxalq yarışdan üç qızıl medalla qayıdırlar*

Azərbaycanın atletika üzrə paralimpiya yığma komandası Tunisdə beynəlxalq Qran-Pri yarışında iştirak edib.

Beynəlxalq turnirdə idmançılarımız uğurla çıxış edərək 3 qızıl, 3 gümüş, 1 bürünc medal qazanıblar.

Qaçış üzrə qadınların yarışında idmançımız Yelena Çebanu 100 metr məsafəni 12,04 saniyəyə qət edərək birinci yeri tutub. Kişilərin yarışında isə Elmir Cəbrayılov 100 metr məsafə üzrə 11,31 saniyəlik nəticə ilə bütün rəqiblərini geridə qoyaraq fəxri kürsünün ilk pilləsində yer alıb. Növbəti qızıl medalı isə nüvəitələmə yarışında idmançımız Samir Nəbiyev qazanıb. O, 13,84 metrlik nəticə ilə bütün rəqiblərini üstələyərək qızıl medala layiq görülüb.

Digər idmançılarımız Yuliya Lanovskaya, Zeynal Miskərli, Nurlan İbrahimov gümüş, Elvin Aslanov bürünc medal qazanıblar.

## *Azərbaycan çaparı atçılığın konkur növü üzrə birinci yer tutub*

Moskvada keçirilən 2020-ci ildə Tokioda keçiriləcək Olimpiya Oyunlarının seçmə mərhələsinin açılış turnirində idmançımız Seyid Musayev 140 santimetr hündürlükdə maneələri dəf edərək birinci yeri tutub. İyirmi doqquz idmançının iştirak etdiyi yarışlarda ölkəmizi təmsil edən Seyid Musayev "Concorde" ləqəbli at ilə 69,21 saniyə ərzində 11 maneə aşaraq sürət parkurunun ən yaxşısı olub. İkinci yerdə Özbəkistan təmsilçisi Okil Sobirconov, üçüncü yerdə isə Rusiya təmsilçiləri Anna Qromzino və Yekaterina Petroçenkova olub.

**olimpnews.az - sizin saytınız**




## *Paytaxt birinciliyinin qalibləri müəyyənləşib*

Azərbaycan Texniki Universitetinin İdman Sarayında keçirilən qılıncoynatma üzrə Bakı şəhər birinciliyinə yekun vurulub. Yarışın sonuncu günündə kişi və qadın sablyaçılar arasında qaliblər müəyyənləşib. Yarışda sablya üzrə kişilər arasında Cavanşir Ağakişiyev, qadınların yarışında isə Aysel Əhədova fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Qalib və mükafatçılar Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən diplom və medallarla mükafatlandırılıblar.

Milli Olimpiya Komitəsinin kollektivi Kazbek Tuayevə, qardaşı

**Nizami Tuayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Futbol üzrə İxtisaslaşdırılmış Uşaq-Gənclər Olimpiya Ehtiyatı Məktəbinin kollektivi Kazbek Tuayevə, qardaşı

**Nizami Tuayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Respublika Yüksək İdman Ustalığı Məktəbinin direktoru Cəfər Hümbətov və məktəbin kollektivi Kazbek Tuayevə, qardaşı

**Nizami Tuayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Kazbek Tuayevə, qardaşı

**Nizami Tuayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.